Yeni Təfəkkür .-2026.- 6 fevral (№03).- S.2.

# "Gənclər günü" qeyd olunub

***2 fevral Gənclər Günü münasibəti-lə Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən respublikanın bir sıra şəhər və rayonlarında, o cümlədən Bakı, Sumqayıt, Lənkəran və digər bölgələr-də müxtəlif tədbirlər təşkil olunmuş-dur.***

Tədbirlərin keçirilməsində Cəmiyyətin fəal gənc könüllüləri yaxından iştirak etmiş, onların təşəbbüskarlığı və sosial fəallığı xüsusi ilə diqqət çəkmişdir.

Gənc könüllülərin iştirakı ilə maarifləndirici sessiyalar, ictimai aksiyalar, interaktiv görüşlər və sosial yönümlü fəaliyyətlər həyata keçirilmişdir. Bu tədbirlər gənclər arasında humanitar dəyərlərin təşviqinə, könüllülük ruhunun gücləndirilməsinə və gənclərin cəmiyyətin inkişafında rolunun artırılmasına xidmət etmişdir.



Azərbaycan Qızıl Aypara Cəmiyyəti gələcəkdə də gənc könüllülərin potensialının inkişafına yönəlmiş fəaliyyətlərini davam etdirəcəkdir.

Tədbirlərdə Azərbaycan AzQAC prezidenti, millət vəkili Novruz Aslanov, vitse-prezident Qafar Əsgərzadə, İcraçı katibin müavinləri Xalidə İsgəndərova, Səbinə Məhbubi-İran, Sumqayıt Regional Mərkəzinin koordinatoru Mətanət Məhərrəmova və digərləri iştirak etmişdir.